

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 165 (23.577)

30 sentyabr 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bilal Hayenin etimadnaməsini qəbul edib.

Səfir Bilal Haye Azərbaycanla iqtisadi əməkdaşlığın dərinləşməsi, müdafiə sahəsində münasibətlərin gücləndirilməsi və iki ölkə xalqlarının daha da yaxınlaşdırılmasına çalışacağını söyləyib.

Prezident İlham Əliyev Pakistanın Azərbaycanın haqq işini hər zaman dəstəklədiyini vurğulayıb. Ölkə başçısı Azərbaycan Ordusunun əks-hücum əməliyyatı ilə işğal altındakı bəzi əraziləri azad etdiyin bildirib. Qeyd olunub ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bildirilib ki, Ermənistanın diktator rejimi dayandırılmalıdır və əgər beynəlxalq ictimaiyyət onları dayandırmasa, Azərbaycan onları dayandıracaq. Prezident İlham Əliyev qardaş Türkiyə və qardaş Pakistana qəti mövqe nümayiş etdirdiyinə görə minnətdarlığını çatdırıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün "COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi" mövzusunda dövlət və hökumət başçılarının toplantısında videoformatda çıxış edib.

## Muxtar respublikada aqrar sahənin inkişafı diqqətdə saxlanılır



*Muxtar respublikada aqrar sahədə həyata keçirilən məqsədyönlü tədbirlər, əkin dövriyyəsinə yeni torpaqların qatılması və müasir suvarma sistemlərinin qurulması bu sahədə davamlı inkişafı təmin etmişdir.*

Geniş vüsət almış meliorasiya və irriqasiya tədbirlərinin nəticəsidir ki, təkcə 2014-cü ildən 1 iyul 2020-ci il tarixədək muxtar respublikada 191,9 min poqonmetr məsafədə sel və daşqınlara qarşı mübarizə tədbirləri, 456,9 min poqonmetr məsafədə kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidən qurulması və bərpası, 912,1 min poqonmetr məsafədə suvarma kanallarının tikintisi, yenidən qurulması və bərpası, 7810,6 hektar sahədə torpaqların meliorativ vəziyyətinin və 4988,2 hektar sahədə torpaqların su təminatının yaxşılaşdırılması tədbirləri həyata keçirilmişdir.

Araz Su Anbarından qidalanan nasos stansiyasının və təzyiqli boru xəttinin, Şahbuz rayonunun Türkeş, Sələsüz, Mərəlik kəndlərinin ərazisində və Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində qapalı suvarma şəbəkələrinin tikintisi hazırda bu sahədə həyata keçirilən tədbirlərin əsasını təşkil etməklə aqrar sahənin inkişafına yeni imkanlar yaradacaqdır.

Meliorasiya və irriqasiya sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, bu sahədə maddi-texniki bazanın gücləndirilməsi məqsədilə cari ilin avqust ayında Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 17 adda 67 müxtəlif təyinatlı yeni maşın, texnika və avadanlıq təqdim olunmuşdur.

Bununla yanaşı, aqrar sektorda fəaliyyət göstərən sahibkarların lazımi texnika və avadanlıqlarla vaxtında və güzəştli şərtlərlə təminatı da diqqətdə saxlanılmış, "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 177 ədədi 2020-ci ilin yanvar-avqust aylarında olmaqla, cəmi 2916 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. 2020-ci ilin yanvar-avqust aylarında əvvəlki illərdə gətirilənlərlə birlikdə 199 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə icarəyə verilmiş, 13 ədədi nağd yolla satılmışdır.

Əhalinin ərzaqla təminatında və məhsuldarlığın yüksəldilməsində toxumçuluq xüsusi yer tutur. Bu istiqamətdə keyfiyyətli toxum istehsalının yaradılması diqqətdə saxlanılmış, cari ilin ötən dövründə "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti yenidən qurulmuşdur. Cəmiyyətin istifadəsində 90-a yaxın texnika, 2 min hektara yaxın torpaq sahəsi, anbarlar, qarışıq yem istehsalı sahəsi və satış mərkəzi mövcuddur ki, bütün bunlar keyfiyyətli və tələbata uyğun toxum sortlarının istehsalına və satışına, daxili tələbatın ödənilməsinə geniş imkanlar yaratmışdır.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2020-ci ilin yanvar-avqust aylarında muxtar respublikada 118016 ton dənli və dənli-paxlalılar, 1669 ton dən üçün qarğıdalı, 134



ton dən üçün günəbaxan, 28,8 ton tütün, 44309,1 ton kartof, 51804 ton tərəvəz, 25041 ton bostan məhsulları, 28353 ton meyvə, 5190,4 ton üzüm istehsal olunmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə dənli və dənli-paxlalılar istehsalı 7,5 faiz, dən üçün qarğıdalı istehsalı 11,4 faiz, kartof istehsalı 1,5 faiz, meyvə istehsalı 1 faiz, üzüm istehsalı isə 1,1 faiz artmışdır.

Muxtar respublikada heyvandarlığın inkişaf etdirilməsi, əhalinin ət və süd məhsullarına olan tələbatının ödənilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, maldarlıqda qısırlığın ləğv olunması və damazlıq heyvanların əldə olunması məqsədilə 2020-ci ilin yanvar-avqust aylarında 9446 baş inək, düyə və camış süni yolla mayalandırılmışdır. Bu dövr ərzində mayalandırılmış inək, düyə və camışlardan 6805 baş sağlam buzov alınmışdır. Azərbaycan Respublikası Prezidentinin "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" 2015-ci il 19 avqust tarixli Sərəncamına əsasən süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiyanın müəyyən edilməsi maldarlığın dinamik inkişafına təkan vermişdir.

Muxtar respublikada heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzi yaradılmış, müasir infrastruktur obyektlərinin tikintisi davam etdirilmişdir.

Əhalinin keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları ilə təminatını qoruyub saxlamaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmiş, Babək Rayon Baytarlıq İdarəsinin yeni binası istifadəyə verilmişdir. Bundan əlavə, Şərur rayonunun Muğancıq-Mehrab, Məmmədsabir, Ordubad rayonunun Vənənd və Culfa rayonunun Camaldın kəndlərində istifadəyə verilən kənd mərkəzlərində baytarlıq məntəqələri üçün müasir iş şəraiti yaradılmışdır.

Muxtar respublikada mal-qaranın baş sayının artımı və cins tərkibinin yaxşılaşdırılması məhsul istehsalının davamlı artımını təmin etmişdir. Belə ki, 2020-ci ilin yanvar-avqust aylarında muxtar respublikada diri çəkidə 14778,6 ton ət, 69097,5 ton süd, 71 milyon 124 min 300 ədəd yumurta, 859,7 ton yun istehsal edilmişdir. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,8 faiz, süd və yun istehsalı hər iki halda 1,4 faiz, yumurta istehsalı 1,7 faiz artmışdır.

Məhsul istehsalçılarına dövlət tərəfindən verilən subsidiyalarla yanaşı, sahibkarlığa əlavə dəstək məqsədilə təkcə cari ilin yanvar-avqust aylarında təsərrüfat subyektlərinə 8 milyon 174 min 100 manat məbləğində kreditlərin verilməsi təmin olunmuşdur ki, bu da bir il öncəki göstəricidən 8,5 faiz çoxdur.

Həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq 2020-ci ilin yanvar-avqust aylarında bir il öncəyə nisbətən 3,6 faiz çox, yəni 323 milyon 769 min 800 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

***Kənd təsərrüfatı məhsulu, min manat***




Muxtar respublikada aqrar sahənin davamlı inkişafı yerli istehsalın genişlənməsinə, sənaye sahəsi üçün yeni xammal mənbəyinin yaradılmasına, ərzaq təhlükəsizliyinin və səmərəli məşğulluğun təmin olunmasına geniş imkanlar yaratmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Müsabiqənin müsahibə mərhələsi keçirilib



*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsində vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 19 iyun 2020-ci il tarixdə elan edilmiş müsabiqənin müsahibə mərhələsi 29 sentyabr tarixdə keçirilib.*

Müsahibə zamanı namizədə ixtisasına, iddia etdiyi vəzifənin qulluq funksiyasına, peşə hazırlığına və dünyagörüşünə uyğun suallar verilib. Müsahibə mərhələsində obyektivliyin və şəffaflığın təmin edilməsi məqsədilə müsahibə qrupunun tərkibində müstəqil ekspertlər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın və Fövqəladə Hallar Nazirliyinin nümayəndələri iştirak ediblər. Həmçinin müsahibə prosesinin videoçəkilişi aparılıb.

Namizədlərin bu mərhələyə hazırlaşmaları üçün müsahibə proqramları Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında yerləşdirilib, proqramda ümumi, dövlət orqanı və vəzifə üzrə ədəbiyyat siyahıları göstərilib.

Müsahibə başa çatdıqdan dərhal sonra namizədə yekun bal arayışı hazırlanıb və şəxsi işinə əlavə olunub. Qanunvericiliyə uyğun olaraq keçid balını toplamış namizəd haqqında məlumatlar komissiyanın müşayiət məktubu ilə Fövqəladə Hallar Nazirliyinə təqdim olunacaqdır. Müsahibənin nəticələri haqqında məlumatlar dərhal komissiyanın rəsmi internet portalında yerləşdirilib.

Qeyd edək ki, müsabiqəyə çıxarılan 10 vakant vəzifənin tutulması üçün 20 namizəd tərəfindən müraciət olunub, onlardan 19-u test imtahanında iştirak edib. Müvafiq keçid balını toplamış 7 nəfər müsahibə mərhələsində iştirak üçün sənədlərini Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edib.

Müsahibədə iştirak edən 6 nəfərdən 4-ü müvafiq keçid balını toplayaraq bu mərhələdə uğur qazanıb. Qanunvericiliyə uyğun olaraq keçid balını toplamış 4 nəfərin sənədləri vakant dövlət qulluğu vəzifələrinə təyin olunmaq üçün Fövqəladə Hallar Nazirliyinə göndərilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***




# İqtisadiyyat







*Azərbaycanda həyata keçirilən iqtisadi və siyasi islahatlar nəticəsində mühasibat uçotunun mahiyyəti və funksiyaları, müəssisədə onun yerinə yetirdiyi vəzifələr dəyişərək bir çox hallarda uçot sistemini müəssisənin özünün seçməsinə imkan yaratmışdır. Uçot iqtisadiyyatın bütün sahələri üzrə müxtəlif fəaliyyət növlərini bir-birinə bağlayan halqadır. Müəssisə və təşkilatlar bir çox qarşılıqlı ünsürlərdən ibarətdir, bəziləri kommersiya fəaliyyətlərini, digərləri isə rəhbərliyi həyata keçirir. Ancaq bunların hamısı ayrılmaz şəkildə bir-biri ilə bağlıdır və birlikdə bir nəzarət sistemini təmsil edirlər. Mühasibat uçotu iqtisadi subyektin idarəetmə sisteminin tərkib hissələrindən biri olub, müəssisənin təsərrüfat fəaliyyətinə davamlı, fasiləsiz, qarşılıqlı müşahidə və nəzarət edir. Onun strukturu maliyyə, idarəetmə və vergi uçotu ilə birbaşa və əks əlaqələrin olması ilə xarakterizə olunan müvafiq məlumat axınından ibarətdir. Mühasibat məlumatları əsasında təhlil, planlaşdırma, nəzarət, tənzimləmə, digər idarəetmə funksiyaları həyata keçirilir. İcra etdiyi funksiyaların əhəmiyyəti mühasibat uçotunun daim təkmilləşdirilməsini tələb edir.*

## Mühasibat uçotunun beynəlxalq standartlar əsasında aparılması günün vacib tələbidir

Dünya bazarına inteqrasiya ilə köhnə uçot metodları və üsullarının yeni şəraitdə qəbuledilməz olması ölkə iqtisadiyyatının bir çox sahələrində mühüm islahatların aparılmasını zəruri etdi. Bu zərurət müəssisələrimizin beynəlxalq bazarlara çıxdığı zaman onun tamhüquqlu üzvü olması, eyni zamanda hər bir müəssisənin fəaliyyətinin və əmlak vəziyyətinin obyektiv əks etdirilməsindən irəli gəlirdi. Mühasibat uçotu və hesabat inzibati-amirlik sistemində prinsipcə tamamilə başqa vəzifələr yerinə yetirirdi. Müasir mərhələdə dünya praktikasında qəbul edilmiş qaydalara uyğun islahatların aparılması mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşmasını zəruri etdi.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən çoxşaxəli iqtisadi islahatlar iqtisadiyyatın müxtəlif sahələrində olduğu kimi, mühasibat uçotu sahəsində də beynəlxalq tələblərə cavab verməklə ənənəvi mühasibat uçotu sisteminin təkmilləşdirilməsi və yenidən qurulması ilə nəticələndi. Qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində 2004-cü il 29 iyun tarixdə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu, 2005-ci il 7 fevral tarixdə "Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı qüvvəyə mindi. Büdcə, vergi, gömrük, bank, mülki-inzibati, bələdiyyə, statistika sahələrini və sahibkarlıq fəaliyyətini tənzimləyən bir sıra mühüm qanunvericilik aktları qəbul edildi. Mühasibat uçotu haqqında qanunvericilik bazasının möhkəmləndirilməsində əsas məqsəd uçot sisteminin dünya uçot sisteminə uyğun qurulması olmuşdur. Bu baxımdan ölkəmizdə beynəlxalq tələblərə uyğun mühasibat uçotunun və mühasibat hesabatlarının hazırlanmasının, tətbiqinin və yayılmasının zəruriliyi yaranmışdır. Maliyyə hesabatlarının beynəlxalq standartlarının məqsədləri qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq korporativ və büdcə sektorları üçün maliyyə hesabatlarının beynəlxalq mühasibat uçotu standartlarına uyğun olaraq hazırlanması, müəssisələrin fəaliyyətinin şəffaflığının və dünya bazarına çıxışının təmin edilməsidir. Təsərrüfat subyektlərinin maliyyə-istehsal fəaliyyətinin səmərəliliyi və rentabellilik səviyyəsinin qiymətləndirilməsində maliyyə hesabatlarının informasiyaları mühüm rol oynayır. Bu informasiyalar müəssisənin cari vəziyyəti, qərarları və fəaliyyəti haqqında məlumatların maliyyə hesabatları istifadəçiləri üçün düzgün çatdırılmasını təmin edir. Hər bir investor öz vəsaitini müəssisənin mənfəətlə işləməsindən əmin olduqdan sonra bu sahəyə qoymağa qərar verdiyi üçün həmin müəssisənin maliyyə hesabatı investor üçün aydın və anlaşılan olmalıdır. Mühasibat uçotunun "biznesin dili" adlandırılması da bununla bağlıdır. Ona görə də iqtisadiyyatın müxtəlif sahələrində beynəlxalq inteqrasiyanın rolunun artması, həmçinin iqtisadi, hüquqi xarakterli daxili və xarici amillərin təsiri nəticəsində mühasibat uçotu sahəsində baş verən dəyişikliklər, müxtəlif ölkələrdə tətbiq olunan uçot və hesabat işlərinin eyniləşdirilməsini, hamı üçün anlaşıqlı olmasını tələb edirdi.

Ölkəmizdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da mühasibat uçotunun və hesabatının yeni standartlar əsasında inkişafı istiqamətində tədbirlər həyata keçirilir. Bu işdə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin üzərinə mühüm vəzifələr düşür. Maliyyə Tədris Mərkəzi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 10 fevral tarixli Sərəncamı ilə yaradılmışdır. Mərkəz maliyyə və mühasibat işi sahəsində işləyənlərin peşə hazırlığının təkmilləşdirilməsini və yenidən hazırlanmasını təmin edən qurumdur. Təhsilin yekunlarına görə dinləyicilərin peşəkar biliklərinin və işgüzar keyfiyyətlərinin qiymətləndirilməsi, mühasibatlıq işinin qurulması məsələlərinin dinləyicilər tərəfindən daha dərindən öyrənilməsi və yeni idarəetmə vərdişlərinin aşılanmasının təşkil edilməsi, Beynəlxalq Mühasibat Uçotu Standartları əsasında mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtib edilməsinə dair biliklərin əldə olunması üzrə təlimlərin təşkil edilməsi Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin əsas vəzifələri sırasındadır. Bu vəzifələri yerinə yetirmək məqsədilə cari il üçün nəzərdə tutulmuş tədris planına əlavə olaraq "Büdcə təşkilatları üçün beynəlxalq mühasibat uçotunun əsas ları" adlı ikigünlük təlimlərin keçirilməsinə başlanılmışdır. İki moduldan ibarət olan təlimin məqsədi təşkilatda baş verən əməliyyatlar zamanı hesabların müxabirləşməsinin (hesabların müvafiq qaydalara uyğun yazılış forması) əzbərçilik qaydasında deyil, elmə əsaslanaraq tərtib edilməsi və beynəlxalq standartlara uyğun maliyyə hesabatlarında əks edilməsinə dair həm nəzəri, həm də praktik biliklərin təkmilləşdirilməsini təmin etməkdən ibarətdir. Təlimin nəticəsi qiymətləndirilmiş, müvafiq bal toplayan iştirakçılara sertifikat təqdim olunmuşdur. Digər iştirakçılara isə fərdi qaydada və ya yenidən müraciət etməklə biliklərinin artırılması və imtahanda iştirak etmələri üçün imkan yaradılmışdır. Təlimə ilk olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin maliyyə-mühasibat sahəsində çalışan işçiləri dəvət olunmuşdur.

*Dünya iqtisadiyyatına inteqrasiya etmək üçün muxtar respublikada uçot sisteminin mövcud beynəlxalq standartların prinsiplərinə uyğun qurulması dövrün ən vacib tələbi olduğundan bu istiqamətdə görülən işlərin sürətləndirilməsi də mühüm əhəmiyyət kəsb edir.*

**Mehriban İMANOVA**
***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru***

## Payız-qış mövsümündə kəsintisiz rabitə və internet xidmətləri göstəriləcək

*Muxtar respublikada payız-qış mövsümündə rabitə və internet xidmətlərinin keyfiyyətini yüksəltmək məqsədilə hazırlıq işləri görülür.*



Mövsümə hazırlıqla bağlı Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşları Naxçıvan şəhərində rabitə xətlərinə, abunə qurğularına baxış keçirir, təmir işləri aparırlar. Eyni zamanda rabitə xətləri, abunə qurğuları və fiber-optik sahəsi üzrə kabel ehtiyatı, eləcə də istismar edilən elektron qurğuların ehtiyat hissələri də yaradılır.

2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə Rabitə və Yeni Texnologiyalar Nazirliyinə də müvafiq tapşırıqlar verilib. Tapşırıqlar, əsasən, yaşayış məntəqələrində sakinlərə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsinə diqqətin artırılması, mal-material ehtiyatı yaradılmasıdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***



## Sahələrdə bol qarğıdalı yetişdirilib

### *Cari ildə bu bitkinin əkin sahələri 1549 hektar təşkil edib*

***Dənli bitkilər qida menyumuzda mühüm yer tutur. Dünyada əkilən dənli bitkilər sırasında buğdadan sonra ikinci yerdə gələn qarğıdalı isə həm qiymətli ərzaq, həm də yem bitkisi kimi çox faydalıdır.***

Qarğıdalının xalq təsərrüfatında da istifadə imkanları genişdir. Məsələn, onun dənələrindən şirə çəkir, şəkər, yağ, spirt və sair istehsal edirlər. Eyni zamanda ondan un, yarma və nişasta hazırlayır, nişastadan isə qənnadı sənayesində istifadə olunur. Qarğıdalının tibbi əhəmiyyəti də vardır. Ondan qaraciyər və öd kisəsinin iltihabında, habelə böyrəkdə daş olan hallarda istifadə edirlər. Elə bu əhəmiyyətindən irəli gəlir ki, dən üçün əkilən bu bitkinin ümumi becərildiyi ərazi dünyada 130 milyon hektardan çoxdur. Eyni zamanda qarğıdalının tropik iqlimə malik ölkələrdən tutmuş yağıntının miqdarı çox olan şimal ölkələrinədək becərilə bilməsi bu qiymətli bitkinin daha geniş ərazilərdə yayılmasına imkan verir. Qarğıdalının yemçilik təsərrüfatında da əhəmiyyəti böyükdür. Bir kiloqram quru dəndə 1,34 yem vahidi və 78 qram həzm olunan protein vardır. Buna görə də onun dənindən qarışıq yem istehsalında istifadə olunur. Bu bitkidən, eyni zamanda keyfiyyətli silos alınır. Bitkinin yaşıl gövdəsi heyvandarlıqda şirəli yem kimi çox faydalıdır.

Son illərdə muxtar respublikamızda da bu qiymətli bitkinin əkilməsinə maraq xeyli artıb. Bunun da bir sıra səbəbləri var. İlk növbədə, muxtar respublikanın iqlimi bu bitkinin əkilib-becərilməsinə əlverişli imkan yaradır. Mütəxəssislərin bildirdiyinə görə, qarğıdalı quraqlığa nisbətən dözümlü bitkidir. Bir sentner quru kütlə əmələ gətirmək üçün 20-30 ton su tələb edir ki, bu da vələmir və arpaya nisbətən azdır. Lakin yüksək məhsul almaq üçün o, daha çox su tələb edir. İnkişafın ilk mərhələsində hektara suyun orta sutkalıq sərfi 30-40 kubmetr, süpürgələmədən mum yetişməsinə qədər olan dövrdə isə 80-100 kubmetrə çatır. Ona görə də qarğıdalıdan 35-40 sentner dən məhsulu və ya 350-400 sentner yaşıl kütlə almaq üçün yay aylarında yağıntının miqdarı 260-300 millimetr olmalı, yaxud da suvarılmalıdır. Digər tərəfdən qarğıdalı quşçuluq təsərrüfatlarında əvəzolunmaz yem sayılır. Çünki tərkibində proteinin faizi yüksək olduğuna görə qarğıdalı yumurta istehsalında mühüm rol oynayır.



Buna görə də həm maldarlığın, həm də quşçuluğun ilbəil inkişaf etdirilməsi bu bitkiyə olan tələbatı durmadan artırırdı. Digər tərəfdən muxtar respublikada digər kənd təsərrüfatı bitkiləri kimi, qarğıdalının da əkilib-becərilməsi üçün indi münbit şərait yaradılıb, buna görə müxtəlif texnikalar alınıb gətirilib. Yaradılmış şərait, heyvandarlıq və quşçuluq təsərrüfatlarına artan maraq ildən-ilə qarğıdalının da becərilməsinə marağı artırıb. Məsələn, 2009-cu ildə muxtar respublikamızda dən üçün əkilən bu bitkinin əkin sahəsi 723,6 hektar, 2012-ci ildə 845 hektar, 2019-cu ildə isə 1004 hektara bərabər olub. Bu il isə qarğıdalı əkilən sahələrin ümumi həcmi muxtar respublika üzrə 1549 hektar təşkil edib.

Qarğıdalı əkininə ən çox üstünlük verilən bölgə Şərur rayonudur. Bu il rayonda qarğıdalı əkini sahələrinin həcmi 1218 hektara çatdırılıb.Kəngərli rayonunda isə qarğıdalı əkini 71 hektar sahədə aparılıb. 260 hektar isə digər bölgələrin payına düşür.



Qarğıdalı əkini sahələrinin ildən-ilə artması belə deməyə əsas verir ki, torpaq mülkiyyətçiləri buna böyük maraq göstərirlər. Bu maraq isə ondan irəli gəlir ki, əvvəlki dövrlərdən fərqli olaraq indi torpaq mülkiyyətçiləri üçün hərtərəfli şərait yaradılıb, onlar lazımi texnika və avadanlıqlarla təmin olunurlar. Bundan əlavə, tədarük məntəqələrində qarğıdalı dəninin nağd pulla alınması əkinçilər üçün çox əlverişlidir. Digər tərəfdən dövlət tərəfindən aqrar sektora göstərilən dövlət dəstəyinin nəticəsidir ki, hər il muxtar respublikada yeni heyvandarlıq təsərrüfatları yaradılır. Bu təsərrüfatların yemə olan ehtiyacında qarğıdalı dəni çox mühüm rol oynayır. Buna görə də qarğıdalı dəninə tələbat ildən-ilə daha da artır.

Xatırladaq ki, əvvəlki dövrlərdə bu qiymətli kənd təsərrüfatı bitkisinə olan ehtiyac idxal hesabına ödənilirdisə, bu gün artıq buna ehtiyac yoxdur. Tədarük olunan məhsulun həcmi artdıqca, ixrac üçün də geniş imkanlar açılır. Bu isə o deməkdir ki, qarğıdalı əkini torpaq mülkiyyətçiləri üçün hər zaman faydalı sahə olacaq. Artıq qısa müddət sonra biçin kampaniyasına başlanılacaq. Bunun üçün hazırlıq işləri başa çatdırılıb, texnika ehtiyatı təmin olunub, lazımi aqrotexniki işlər yekunlaşdırılıb. Zəmilərə vaxtında və lazımi qulluq göstərildiyindən sahələrdə bol qarğıdalı yetişdirilib. Bu isə əkinçilərə yaxşı qazanc əldə etməyə böyük inam yaradır.

**Səbuhi HƏSƏNOV**

**Tarixi abidələrimiz milli sərvətimizdir**

# Naxçıvan qalaları – tarixin daş yaddaşı, mübarizlik simvolu

***Dünyada ən möhtəşəm tikililər arasında qalalar, qəsrlər mühüm yer tutur. Çünki bu istehkam qurğuları, sadəcə, tikili deyil, həm də təmsil etdiyi xalqın mübarizə, əzm tarixini və mühəndis-texniki düşüncə tərzini özündə yaşadır. Buna görə də dünyanın turistlərin ən çox ziyarət etdiyi yerlər sırasında qədimdən qalan qəsrlər, qalalar üstünlük təşkil edir.***



Beşminillik şəhər mədəniyyəti olan qədim Naxçıvan ilk insan yaşayış yerləri, erkən şəhər mədəniyyəti, möhtəşəm abidələri ilə öyünür. Böyük İpək Yolunun üzərində yerləşən qədim Naxçıvan, həmçinin əlverişli şəraiti, strateji coğrafi mövqeyi ilə tarixboyu başqa dövlətlərin diqqətini cəlb edib, diyarımız yadelli hücumlarına məruz qalıb. Azərbaycan tarixinə şanlı qəhrəmanlıq salnamələri yazan xalqımız doğma torpaqlarımızı düşmən hücumundan qoruyub, yaşayış məntəqələrini işğal və dağıntılardan qorumaq üçün müdafiə-istehkam qurğuları – qalalar tikib. Nəticədə, bu qədim diyarda yadelli işğalçılardan qorunmaq üçün Oğlanqala, Qazançı qalası, Çalxanqala, Əlincəqala, Naxçıvanqala kimi möhtəşəm müdafiə istehkamları – qala-şəhərlər meydana gəlib. Bu qalalar möhtəşəmliyi və əzəməti ilə hər daşında, qayasında ulu babalarımızın qəhrəmanlıq, mübarizlik əzmini yaşadır.

Əlincəçay vadisi muxtar respublikanın qədim tarixə malik olan ərazilərindən biridir. Burada hər addımda qədim yaşayış yerlərinə rast gəlirsən. Əlincə, Xanəgah kimi kəndlərimiz tarixin ən qədim dövrlərinə şahidlik edən yaşayış məntəqələridir. Əlincəçay vadisinin qədim yaşayış yerlərindən biri olduğunu sübuta yetirən amillərdən biri də burada qədim qala şəhərlərinin izlərinə rast gəlinməsidir. Naxçıvanın ən qədim müdafiə istehkamlarından biri olan Qazançı qalası da bu ərazidə yerləşən abidələrdən biridir. Əlincəçayın hər iki sahilində qərarlaşan qalanı tarixçilər Kas türkləri ilə bağlayırlar. Aşkar edilmiş arxeoloji materialların təhlili əsasında qeyd olunur ki, Qazançı qalası eradan əvvəl III-I minilliklər ərzində fəaliyyət göstərib. Qalanın ətrafında, həmçinin qədim nekropol yerləşir. 12 hektar ərazini əhatə edən qala bəzi yerlərdə iki və üç cərgə divarla möhkəmləndirilib. 1999-cu ildə burada aparılan araşdırmalar zamanı onun mərkəzi hissəsində Narınqalanın olduğu müəyyən edilib. Yonulmuş iri qaya parçalarından inşa olunmuş divarlardan bəzən bir, bəzən isə iki sıra daş hörgülər dövrümüzədək gəlib çatıb. Narınqalanın bu mühüm istehkam qurğusunun mərkəzi və ən hündür hissəsində yerləşməsi həm qalanı, həm də qalaya yaxınlaşan yolları nəzarətdə saxlamağa imkan verib.



Çalxanqala



Oğlanqala

Tarixin dərin qatlarına şahidlik edən Əlincəqala möhtəşəmliyi, əzəməti ilə Naxçıvanın məğrurluq simvoluna çevrilib. Əlincəqala xalqımızın yaddaşında yadelli işğalçılara qarşı müqavimət mərkəzi kimi qalıb. Qalanın tikilmə tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Hətta qədim mənbələrdə qalanın 2 mindən çox yaşı olduğu göstərilir.

Azərbaycan Atabəyləri hökmranlığı dövründə Əlincəqala mühüm hərbi istehkam olaraq hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq yerinə çevrilib. Əlincəqala XIII-XIV əsrlərdə Hülakülərin, XIV əsrin II yarısında Cəlairilərin idarəçiliyinə keçib. Zamanının məğlubedilməz hökmdarı Əmir Teymur bu qala uğrunda uzun müddət mübarizə aparıb. Onun qoşunları Əlincə qalasına dəfələrlə hücumlar etsə də, 14 il ərzində qalanı fəth edə bilməyib. İndi qürur doğuran yekdil fikir budur ki, Əlincəqala bir Teymura qarşı mübarizəsinə, bir də dövrümüzdə əsaslı bərpasına görə tarixdə həmişə yaşayacaq.

Əlincəqalanın hündürlüyü 2 min metrdir. Qalanın sıldırım qayalıqlarla əhatə olunması əvvəllər onu çıxılması çətin olan bir istehkam qurğusuna çevirmişdi. Ulu tariximizə işıq tutan bu qalanın bir mühüm əhəmiyyəti də ondan ibarətdir ki, o əcdadlarımıza xas olan tikinti mədəniyyətini də özündə qoruyub saxlayıb. Dörd tərəfi dağlarla, qayalarla, daşlarla zirehlənən, alınmaz istehkama çevrilən bu qala ər savaşlarında igid oğullarımızı yadellilərin fitnə-fəsadından qoruyub. Bu mərdlik qalasının hər daşına, divarına xalqımızın mübarizliyi, qəhrəmanlığı, düşmənə qarşı qəzəb və nifrəti hopub. Adı ulu dastanımız "Kitabi-Dədə Qorqud"da dəfələrlə çəkilən Əlincə qalasının dünya mədəniyyət tarixində xüsusi yeri və əhəmiyyəti vardır. Bu abidə 2007-ci ildə dünya əhəmiyyətli abidələrin siyahısına daxil edilib.

Tarixi keçmişimizə göstərilən hörmət və ehtiramın nəticəsidir ki, Naxçıvan ərazisində mövcud olan bütün tarixi abidələr qorunur və mühafizə altına alınır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncamı ilə qalaya yeni həyat bəxş olunub. Bərpa işləri zamanı qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları, təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa edilib. Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılıb. 2016-cı il iyunun 17-də yenidənqurmadan sonra istifadəyə verilən qalaya gediş-gəliş xeyli asanlaşdırılıb. Qalanın zirvəsinə doğru yol çəkilib, qala ərazisində işıqlandırma sistemləri yaradılıb, oturacaqlar qoyulub, yaşıllıqlar salınıb. Bu gün qalanın ən uca zirvəsində üçrəngli bayrağımız dalğalanır.

Əlincəqala bərpa olunduqdan sonra burada tapılan nadir tarixi mədəni nümunələri qoruyub saxlamaq və nümayiş etdirmək məqsədilə ərazidə "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi də yaradılıb. Muzeydə Əlincəqalada məskunlaşan insanların həyat tərzini əks etdirən maddi mədəniyyət nümunələri, xüsusilə qədim məişət əşyaları, qalada aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi nümunələr, Naxçıvanın və Əlincəqalanın tarixi ilə bağlı yazılmış kitablar, qəzet məqalələri, qalanın bərpadan əvvəl, bərpa zamanı və bərpadan sonrakı fotoşəkilləri nümayiş etdirilir.

Bütün bu tədbirlərdən sonra Əlincəqalanın turizm imkanları da xeyli yüksəlib. Muxtar respublikamıza səfər edən turistlərin böyük əksəriyyəti Əlincəqala tarixi abidəsinə maraq göstərirlər. Buna görə də qalanın daha geniş, dünya auditoriyası səviyyəsində təbliği məqsədilə "Əlincəqala" kitabı və "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin internet saytı hazırlanaraq istifadəyə verilib. Sayt vasitəsilə internet istifadəçilərinə Əlincəqala haqqında geniş, dolğun məlumat təqdim edilir. Bütün bunlar dünya ictimaiyyətində xalqımızın orta əsrlər dövrünə aid məişət mədəniyyəti haqqında dolğun təəssürat yaradır və Naxçıvana turist axınının sürətlənməsinə öz təsirini göstərir.

Bir zamanlar Əmir Teymur kimi dünya fatehlərinə uzun illər boyu sinə gərən qala bu gün də dünyanın dörd bir yanından gələn turistlərin diqqətini çəkir. Bir neçə il bundan öncə qalanın əzəmətli zirvəsi ancaq qartallar məskəni idisə, bu gün böyükdən-kiçiyə hər kəs rahatlıqla qısa bir vaxtda Əlincə zirvəsinə qalxa bilir. Bərpadan əvvəl sıldırım qayaların əhatəsində qalaya qalxmaq xeyli çətin idi. Hətta ərazi o qədər əlverişsiz idi ki, bərpa zamanı, ümumiyyətlə, texnikanın gücündən istifadə mümkün olmayıb. Tikinti materiallarının daşınmasında atlardan, qala divarlarının və digər tikililərin bərpasında isə ancaq insan əməyindən istifadə edilib, qala divarları kərpic-kərpic ucaldılıb, məğrurluq tariximiz pillə-pillə bərpa olunub. Artıq naxçıvanlılar və Əlincə soraği ilə diyarımıza təşrif buyuran qonaqlar Əlincəqalaya rahatlıqla səfər edir, əzəmətli zirvədən ətrafın gözəl mənzərələrini seyr edir, fotolar çəkib paylaşırlar. Təsadüfi deyil ki, diyarımızdan xoş təəssüratlarla ayrılan xarici ölkə nümayəndələri mətbuat səhifələrində, internet portallarında, sosial şəbəkələrdə daha çox Əlincəqalanı paylaşır, təəssüratlarını heyranlıqla təqdim edirlər. Əlincəqala səfərindən böyük zövq alan turistlər yekdilliklə Əlincəqalanı "Qafqazın Maçu-Piçusu" adlandırırlar.

Şərur rayonu ərazisindəki Arpaçay vadisi də bərəkətli torpaqları və əlverişli şəraiti ilə yurdumuza düşmən gözü ilə baxanların işğallarına məruz qalıb. Buna görə də bu ərazidə də özünəməxsus istehkam qalaları tikilib, qalanın Qarasu qalası, birinci və ikinci Qız qalaları, Oğlanqala möhtəşəm hərbi istehkamların dövrümüzə qədər gəlib çatan nümunələridir. Strateji cəhətdən olduqca əlverişli mövqedə salınan bu qalalar yadelli hücumlarının qarşısının alınmasında mühüm əhəmiyyətə malik olub. Oğlanqalada və Qızqalada yaşayan əcdadlarımız Erkən Dəmir dövründə vahid dövlət halında birləşərək xarici işğalçılara qarşı mübarizə aparıblar. Aparılan tədqiqat işləri sübut edib ki, bu qalaların ətrafındakı 487 hektarlıq ərazi möhtəşəm müdafiə divarları ilə əhatə olunub. Aşkar edilən təsərrüfat küpünün parçaları üzərindəki mixi işarələr Oğlanqalada yazı sisteminin mövcudluğunu təsdiqləyir. Həmçinin qalanın yaxınlığında yerləşən Sədərək, Xələc, Qalaçıq yaşayış yerlərinin əhalisi Erkən Dəmir dövründə güclü tayfa ittifaqı yaradaraq tarixi ərazimizin və mədəniyyətimizin qorunmasını təmin edib.

Naxçıvanın mübarizlik və qəhrəmanlıq tarixinin şanlı bir səhifəsi də Cəhriçayın sağ sahilində, Çalxan dağının üzərində aşkarlanıb. Buradakı Çalxanqala da öz möhtəşəmliyini saxlayan abidələrdəndir. Özünəməxsus quruluşu ilə diqqəti cəlb edən qala əlverişli mövqedə yerləşir. Tikinti texnikasına görə Oğlanqala və Qazançı qalası ilə oxşardır. Buradan Cəhriçay və Naxçıvançay vadisini nəzarətdə saxlamaq mümkündür. Qalanın yerləşdiyi Çalxan dağı hər tərəfdən sıldırım qayalarla əhatə olunduğundan əsas giriş yolu cənub tərəfdəndir. Qaladan Cəhriçaya enmək üçün yeraltı yol salınıb. Şübhəsiz ki, yeraltı yollar həm də gizli çaparların göndərilməsi və düşmənə qəfil zərbələr vurmaq üçün də mühüm əhəmiyyətə malik idi. Qalanın şimalında mövcud olan qavaldaşdan isə yadelli yürüşlərinin əvvəlcədən xəbərdar edilməsi üçün istifadə olunub.



Xalqımızın mübarizlik tarixinin möhtəşəm nümunələrindən biri də Naxçıvan şəhərindəki Naxçıvanqaladır. Bu gün "festivallar məkanı" kimi dünyada məşhurlaşan Naxçıvanqala təkcə müdafiə məqsədi daşımayıb, eyni zamanda bu tarixi ərazidə formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilib. Tarixin müxtəlif dönəmlərində Naxçıvana gələn səyyahların verdikləri məlumata görə, Naxçıvanqala XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olub. Naxçıvan şəhərinin 1827-ci ilə aid planında verilən Naxçıvanqalanın sxematik təsvirinə əsasən qala iki hissədən – kiçik qala (Narınqala) və böyük qaladan ibarətdir. Kiçik qala və ya Narınqalanın cənub-qərbində 300 nəfərin qoruna biləcəyi yeraltı sığınacaq – mağara da var. Güman edilir ki, mağaradan qalanın şərqinə tərəf gedən gizli yol qaladan, təxminən, 2 kilometr aralı məsafədə axan Naxçıvançaya çıxır.

Qalanın müasir dövrədək saxlanmış divarları orta əsrlərə aiddir. Divarlar daş qarışıq möhrədən inşa edilib, yarımdairəvi bürclərlə möhkəmləndirilib. Yaşayış binalarının üst hissəsindən döyüşçülərin hərəkət etməsi üçün meydan kimi istifadə olunub. Səfəvi-Osmanlı müharibələri zamanı güclü dağıntıya məruz qalmış qalanın əvvəlki möhtəşəmliyini bərpa etmək mümkün olmayıb. Qala müdafiə əhəmiyyətini itirdikdən sonra burada mülki əhalinin həyatı müəyyən müddət davam edib. Şəhərin böyük qala hissəsində küp qəbirlərin tapılması burada antik dövrdə də həyatın olduğunu göstərir. 1983-1991-ci illərdə qalanın ərazisində aparılan tədqiqatlar zamanı zəngin arxeoloji materiallar, xüsusilə saxsı qab fraqmentləri, daş gürzlər aşkar olunub. Arxeoloji tədqiqatlardan məlumdur ki, belə daş gürzlərdən Tunc dövründə eramızdan əvvəl III-II minilliklərdə duz mədənlərində istifadə olunub.

Tarixi abidələrimizə böyük qayğının daha bir nümunəsi də Naxçıvanqaladır. Tükənməz yurd sevgisi əsrlər boyunca bərpası mümkünsüz sayılan qalaya yeni həyat bəxş edib. Naxçıvanqalanın bərpasına 2010-cu ildə başlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" 2013-cü il 5 iyun tarixdə Sərəncam imzalayıb. 2014-cü il aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin açılışı olub. Muzeydə eramızdan əvvəl V-III minilliklərə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyimlər nümayiş etdirilir. Bu gün Naxçıvanqala qədim tarixi mədəni abidələrimiz sırasında olmaqla yanaşı, həm də beynəlxalq tədbirlərin, konsert və festivalların keçirildiyi bir ünvan kimi məşhurdur. Bu günlərdə "Arıçılıq məhsulları – bal festivalı"na ev sahibliyi edən Naxçıvanqalanı hər il minlərlə turist ziyarət edir.

Əlincəqala, Naxçıvanqala və onlarla digər tarixi abidələrimizin bərpası və qorunub saxlanması istiqamətində həyata keçirilən tədbirlər tariximizə, mədəniyyətimizə, milli kimliyimizə sahibliyin silinməz nümunəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamı bu baxımdan mühüm əhəmiyyətə malikdir. Artıq muxtar respublikada 1200-dən çox abidə qeydə alınaraq pasportlaşdırılıb ki, onlardan da 80-i qalalardır. Dünyanın ən qədim insan məskənlərindən biri olan Naxçıvanda 2016-cı ilin iyulunda "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzusunda beynəlxalq konfransın keçirilməsi də tarixi keçmişimizə bir baxış idi. Tarixin bütün dövrlərində bu qədim diyarda zəngin mədəniyyət və memarlıq nümunələri yaradılıb. Qalalar isə yalnız sığınacaq məqsədi daşımayıb. Qalalar bu ərazidə yaşayan əcdadlarımızın həyat tərzini, dövlətçilik ənənələrini və memarlıq sənətini özündə yaşadan mədəniyyət nümunələridir.

*Tarixin şahidi və iştirakçısı olan qalalarımız məğrurluq, yenilməzlik simvoludur. Möhtəşəm Naxçıvan qalaları milli dövlətçiliyimizin, mübarizlik, birlik, həmrəylik kimi silinməz ənənələrimizin daş yaddaşıdır. Bu qalaların əzəməti və möhtəşəm tarixi gənclərə torpaq təəssübü, Vətənə dərin sədaqət hissi aşılayır. Buna görə də digər tarixi abidələrimiz kimi qalalarımıza da böyük hörmət, ehtiram və qayğı ilə yanaşılır. Bu diqqət, qayğı isə yüksək qiymətə layiqdir. Bu qiymətin ən mühüm ifadəsi isə bərpa zamanı Əlincəqalanın girişində salınmış daş kitabə üzərində həkk olunub:*

**"Tarixi yaşadanları tarix də yaşadacaqdır"**.

**Gülcamal TAHİROVA**

# Vətən sevgisi (esse)



### Vətən nədir?

Vətən, sadəcə, müəyyən sərhədləri olan coğrafi bir məkan deyil. Vətən qanla yoğurulan torpaqdır. Vətən mənəviyyat, namusdur, Vətən and yeri, qibləgahdır, Vətən anadır, isti qucaqdır. Vətən azadlıqdır, Vətən ulularımızın əmanəti, əcdadlarımızın uyuduğu müqəddəs mirasdır. Vətən, düşünmədən fəda edə bilmək duyğusunun təcəssümüdür. Vətən – bütöv Azərbaycandır! Azərbaycan dedikdə böyük bir dühа, yenilməz bir ordu canlanır göz önündə! Azərbaycan dedikdə mərdlik, vətənpərvərlik, igidlik və səxavət mücəssəməsi olan xalq anılır. Azərbaycan dedikdə ucsuz-bucaqsız bərəkətli torpaqlarında yağıların göz dikdiyi sərvəti dillərə dastan olmuş böyük bir Vətən xatırlanır!

### Bəs kimindir bu Vətən?

Yağıdan haqq-hesab soranların, döyüş meydanında ərtək savaşanlarındır, Allah dərgahına ərənlərin, şəhadətə yüksələnlərindir. Köksünü Vətənə sipər çəkənlərindir, təmənnasız ona xidmət edənlərindir, bir ovuc torpağı canından əziz tutanlarındır.

İnsan qəlbinin ənginliklərində daim bir sevgi nəğməsi oxunur. Bu nəğmə, Vətən nəğməsidir. Hələ beşikdə çırpınan balaca körpələrimizin ürkək qəlbləri ancaq bu nəğməni zümzümə edir. Bu nəğməni hərə bir cür oxuyur. Onu döyüş harayı, Koroğlu nərəsi, qılınc zərbəsi ilə oxuyanlar da olub, qadın isməti, Nigar vəfası, Həcər sədaqəti ilə oxuyanlar da.

Vətən torpağı bizim üçün səcdəgahdır, toxunulmazdır, müqəddəsdir. Vətən dəyişmir, bölünmür, satılmır, köhnəlmir, qocalmır. Vətəndən pay olmur. Bu müqəddəs məkanda keçmişlə gələcəyimiz qovuşur. O, əbədi və əzəlidir. Onun göylərində əcdadlarımızın ruhları dolaşır!

Torpağı Vətən edən millətin onda yaşadığı tarixdir. Bizim tariximiz zəngindir, şərəflidir, qürurvericidir. Atalarımız sahib olduqlarından imtina edərək bu torpaqlar uğrunda canlarını verib şəhid olublar. Azərbaycanımız bizə atalarımızın əmanətidir. Atalarımızın bizə əmanət etdiyi cənnət Vətənimizi qorumaq üçün yağı düşmənə sinə gərməliyik, cəbhələrdə igidcəsinə döyüşməliyik. Min illərdir, üzərində yaşayıb-yaratdığımız bu torpaqların dəyəri yüksəkdir. Tarixi minlərlə qəhrəmanının biləkləri gücünə qurulmuş Azərbaycan övladının heç bir döyüşdən geri çəkilmək kimi bir qorxusu yoxdur. Çünki onun güclü dövləti, güclü ordusu, güclü iradəsi var. Heç bir Vətən mübarizə olmadan müstəqilliyini qoruya bilməz. Azərbaycanımızın hər qarışı bizim üçün dəyərlidir, dəyərdir. Vətənə olan sevgisi insanın ən ülvi, müqəddəs və ali duyğusudur. Tariximizin səhifələri Azərbaycanın qəhrəman övladlarının şücaətləri ilə doludur. Düşmənlə apardığı amansız mübarizə onları xalqın qəhrəmanlarına çevirib. Biz qəhrəmanlarımızı heç vaxt unutmuruq. Vətəni sevmək ən böyük mərdlikdir. Çünki üzərində yaşadığı torpaqlar və eyni millətə mənsub insanlar, birlik və bərabərlik içərisində yaşadıqları zaman o ölkədə dinclik və güvən mühiti təsis edilir. İnsan vətənpərvərlik duyğuları sayəsində lazım olduğu zaman Vətəni üçün ölməyə belə, hazırdır. Vətəni uğrunda canını ortaya qoyanlara şəhid deyilir. Şəhidlik isə dinimizdə ən böyük mövqelərdən biridir. Keçmişdən günümüzə yüz minlərlə igidlərimiz şəhidlik mərtəbəsinə yüksələrək, Vətənimiz uğrunda həyatlarını ortaya qoyaraq, ölkəmizin inkişafı naminə şəhid olublar. Şəhidlərimizin bu uca məqama çatan ruhu sayəsində bu gün biz rahat şəkildə yaşayırıq. Biz o qorxmaz, sarsılmaz, yenilməz insanların nəsliyik. Bu səbəbdən onlara layiq bir övlad kimi yaşamalı və onlar qədər biz də vətənpərvərlik duyğularını ürəyimizdə səmimi bir şəkildə hiss etdirməliyik. Bu Vətən hamımızındır. Vətənimiz təhlükəyə düşdüyü vaxt biz də atalarımızın etdiyi kimi bir an belə, düşünmədən canımızı ortaya qoymağı bacarmalıyıq. Elə əsl vətənpərvərlik də budur. Mənfur düşmənlərin pusquda olduğu bu vaxtlarda hər birimiz ayıq-sayıq olmalı, əlimizdə bayraq, dilimizdə dua Vətənimizin müdafiəsində qanımızı, canımızı əsirgəmədən dövlətimizin ətrafında sıx birləşməliyik.

**✍ Gülcamal TAHİROVA**

*Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Kardioloji Mərkəzin iştirakı ilə 29 sentyabr – Dünya Ürək Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib.*

## Elmi-praktik konfrans



Universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, Dünya Ürək Günü ilk dəfə 1999-cu ildə Ümumdünya Ürək Federasiyasının təşəbbüsü ilə təşkil edilib. Dünya Səhiyyə Təşkilatı, UNESKO və digər mühüm təşkilatlar həmin təşəbbüsü dəstəkləyiblər.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov bildirib ki, hazırda ürək-damar xəstəlikləri dünyada ölümün və sağlamlıq imkanları məhdudluğun əsas səbəblərindən biri sayılır və bu xəstəlik üzündən hər il 17 milyondan çox insan dünyasını dəyişir. Ürək-damar xəstəlikləri və insultun yaranmasının risk amilləri qan təzyiqinin yüksəlməsi, qanda xolesterin və qlükozanın miqdarının artması, siqaret çəkmək, artıq çəki, piylənmə və fiziki hərəkətsizlik, meyvə və tərəvəzlərlə qidalanmanın azlığıdır.

Kardioloji Mərkəzin baş həkimi Ramin Hacıyev Kardiovaskulyar xəstəliklərdə cihaz müalicəsi, İstanbul Koşuyolu Universitetinin uzman kardioloqu Elnur Əlizadə CTO – Xronik koronar arteriyaların total okluziyalarında yeniliklər, Ümumi təbabət və klinik fənlər kafedrasının baş müəllimi, Kardioloji Mərkəzin həkimi Süleyman Cəfərov "Hipertoniya xəstəliyi və onun müasir müalicə metodları", Kardiologiya ixtisası üzrə həkim-rezident Sara Əzizli "ST elevasiyasız miokard infarktı" adlı çıxışlar ediblər. Çıxışlarda qeyd olunub ki, Dünya Ürək Federasiyasının məlumatına görə, sağlam həyat tərzi keçirmək, tütün istifadəsini məhdudlaşdırmaq, qidalanmanı nəzarətdə saxlamaq və fiziki fəallığı artırmaq hesabına infarkt və insult nəticəsində baş verən erkən ölümlərin 80 faizinin qarşısını almaq olar.

**Səadət ƏLİYEVA**

## "Kitabi-Dədə Qorqud" dastanının müzakirəsi olub

*"Naxçıvan" Universitetinin Elmi kitabxanasında "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan "Kitabi-Dədə Qorqud" dastanının müzakirəsi keçirilib.*

Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq "Oxunması zəruri olan kitablar" haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamının əhəmiyyətindən danışıb, keçirilən tədbirin məqsəd və mahiyyətini qeyd edərək kitab haqqında ümumi məlumat verib.



"Naxçıvan" Universitetinin Elmi kitabxanasının müdiri Zamin Babazadənin, universitetin əməkdaşı Emelya Süleymanovanın və ali təhsil ocağının tələbələri Nərminə Həsənovanın, Məşədi Ələkbərovun, Nərmin Əmirovanın, Röya Quliyevanın çıxışları dinlənilib.

Bildirilib ki, "Kitabi-Dədə Qorqud" dastanı qəhrəmanlıq, igidlik, mərdlik, cəsurluq, dostluq, birlik dastanı olmaqla yanaşı, həm də namus, qeyrət, ləyaqət, insanpərvərlik kimi əxlaqi, milli və mənəvi dəyərlərlə zəngin olan və gənc nəslin tərbiyəsində mühüm rol oynayan böyük tarixi abidədir. Dastanda baş sərkərdədən tutmuş böyükdən-kiçiyə bütün qəhrəmanların doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə hazır olduqları nümayiş etdirilir. "Kitabi-Dədə Qorqud" dastanında ifadə olunan çoxsaylı toponimlərin Naxçıvan ərazisində qeydə alınması bu regionun qədim Oğuz yurdu, Azərbaycan torpağı olduğunu bir daha təsdiqləyir.

Sonda tədbir iştirakçıları "Naxçıvan" Universitetinin Elmi kitabxanasında "Oxunması zəruri olan kitablar"dan ibarət stendə baxış keçirib.

**Seyfur HACIMURADOV**

## Növbəti seminar Şahbuz rayonunda keçirilib



"Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının aparılmasında qanunvericiliyin tələbləri" mövzusunda növbəti seminar Şahbuz rayonunda təşkil edilib. Tədbiri Şahbuz Rayon İcra Hakimiyyəti aparatının şöbə müdiri Söhrab Kərimov açıb.

Notariat bölməsinin rəisi vəzifəsini müvəqqəti icra edən ədliyyə müşaviri Zülfü İsmayılov "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı zamanı qanunvericiliyin tələbləri" mövzusunda çıxış edərək bildirib ki, əhaliyə göstərilən xidmət səviyyəsinin yüksəldilməsi, nöqsanlara yol verilməməsi və aparılan əməliyyatlar zamanı kargüzarlıq qaydaları ilə bağlı qanunvericiliyin tələblərinin gözlənilməsi qarşıya qoyulan əsas tələbdir.

Qanunvericilik bölməsinin rəisi, ədliyyə müşaviri Ayaz Məhərrəmov "Ad hüququ və adların verilməsi ilə bağlı qanunvericiliyin tələbləri" ilə bağlı əsas məqamları diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan Respublikası Ailə Məcəlləsində göstərilir ki, uşaqlara ad valideynlərin birgə razılığı əsasında verilir. İcra nümayəndələri əməliyyatları apararkən adların düzgün yazılışına da diqqət etməli və yazılan adlar Azərbaycan ədəbi dilinin yazı qaydalarına uyğun olmalıdır.

"Doğumun, ölümün və nikahın qeydə alınması zamanı yol verilən nöqsanlar" barədə Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti bölməsinin rəisi, I dərəcəli ədliyyə qulluqçusu Həbibə Əliyeva vurğulayıb ki, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sistemi insan hüquqlarının qorunması, sosial müdafiə proqramlarının həyata keçirilməsi, ailə sağlamlığının təmin edilməsində vacib rol oynayır. Çıxışda icra nümayəndəlikləri tərəfindən vətəndaşlıq vəziyyəti aktları dövlət qeydiyyatına alınarkən yol verilən nöqsanlar da diqqətə çatdırılıb, bildirib ki, kargüzarlıq işlərinin aparılması zamanı daha diqqətli olmalı, vətəndaşlar tərəfindən şəxsən iştirak edilməli olan hallar tələb olunan zaman qanunvericiliyə əməl edilməli və ərizələrin şəxsən yazılması təmin edilməlidir.

Sonda seminar iştirakçılarına bukletləri paylanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə hansı qaydada verilir?*

**Cavab:** Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma və ya müvəqqəti yaşama müddətinin bitməsinə azı 30 gün qalmış bu barədə icazə alınması üçün Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsini almaq üçün şəxsən və ya qanuni nümayəndələri vasitəsilə müraciət edirlər.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə bağlı müraciətlərinə, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ödədiyi dövlət rüsumunun məbləğinə müvafiq olaraq, qanunda nəzərdə tutulmuş müddətdə baxılır. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin müddətinin uzadılması icazənin verilməsi üçün müəyyən edilmiş qaydada həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

*İtmişdir*

Şərur rayonu, Vərməziyar kənd sakini Qasımova Nubar Hüseyn qızının adına olan $100^{C}$ inventar nömrəli 10218038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 730